# Rusiyanın ən yaxşı müəllimi



## *İlya Demakov:* "Müasir uşaqlarla işləmək çox maraqlıdır"

**Oruc MUSTAFAYEV**

Rusiyada artıq 28 ildir ki, ölkənin ən yaxşı müəlliminin müəyyən edilməsi üzrə müsabiqə keçirilir. Bu ilin yanvar ayından start götürən "İlin müəllimi-2017" müsabiqəsində Sankt - Peterburq şəhərindəki 116 nömrəli gimnaziyanın tarix müəllimi, 30 yaşlı İlya Demakov qalib gəlib. Oktyabrın 5-də müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günündə İ.Demakov Kremldə keçirilən mərasimdə ölkənin ən yaxşı müəllimi elan olunub. Müsabiqənin mütləq qalibinə böyük "Büllur qutan"ı və ən yaxşı müəllim mükafatını ölkənin təhsil və elm naziri Olqa Vasilyeva və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi təqdim ediblər. "Mən həyəcanımın öhdəsindən çətinliklə gəlirəm. Bu mükafat mənə bütün müəllimlərimin sayəsində mümkün oldu", - deyə müsabiqənin qalibi bildirib.

Ölkənin 85 subyektindən 47 min təhsil işçisi arasında keçirilən çox mürəkkəb və məsuliyyətli yarışmanın qalibi "Azərbaycan müəllimi" qəzetinə məmnunluqla müsahibə verməyə razılığını bildirdi. Öncə Rusiyanın ən yaxşı müəllimini yaxından tanıyaq.

İlya Demakov 1987-ci ildə Rusiyanın Tümen vilayətində doğulub. Primorsk rayonu 599 nömrəli orta məktəbdə oxuyub. 2009-cu ildə Sankt-Peterburq Dövlət Universitetinin tarix fakültəsini, 2013-cü ildə isə Rusiya Elmlər Akademiyasının aspiranturasını bitirib. 2009-cu ildən müəllimlik fəaliyyətinə başlayıb. 2013-cü ildə İ.Demakov ictimaiyyat fənni üzrə Sankt-Peterburqda keçirilən "Pedaqoji debüt" müsabiqəsinin qalibi olub. 2016-cı ildən şimal ölkələri gənclərinin Forumunda Rusiya komandasına rəhbərlik edib. 2017-ci ildə Sankt-Peterburq şəhəri üzrə "İlin müəllimi" adını alıb. Sankt-Peterburq hökumətinin, Rusiya Təhsil və Elm Nazirliyinin fəxri fərmanlarına, istedadlı gənclər üçün Rusiya Prezidenti mükafatına layiq görülüb.

Ancaq İlya Demakova xüsusi qürur verən onun şagirdləridir. O, yetirmələrinin tədqiqatçılıq fəaliyyətinə və olimpiada hərəkatına böyük diqqət ayırır. 2014-2015-ci illərdə onun şagirdləri hüquq, 2017-ci ildə isə ictimaiyyat fənləri üzrə məktəblilərin Ümumrusiya olimpiadasının qalibi olublar.

İlya Demakov könüllü dəstələrə, gimnaziyanın teatr studiyasına (alman dilində) rəhbərlik edir. Alman dili ilə yanaşı, ingilis və ispan dillərini də bilir. Ən müxtəlif musiqi janrları ilə maraqlanır. Klassik musiqini çox sevir. Müəllimin peşəkar kredosu: "Aydınlıq və həvəs - müvəffəqiyyətin əsasıdır".

### Həyatda çox şeyi məktəb, universitet həll edir

*- İlya, niyə müəllim olmağa qərar verdiniz?*

- Mən Sibirdə doğuldum, Sankt-Peterburqda böyüdüm - bunlar iki xüsusi mədəni məkanlardır. Mən öz Sibir mənşəyimlə qürur duyuram, amma ilk növbədə özümü peterburqlu hiss edirəm. Düşünürəm ki, həyatda çox şeyi məktəb, əlbəttə ki, universitet həll edir. Mənim məktəbim, o vaxtlar deyildiyi kimi, aerokosmik təmayüllü idi, təhsil ocağının üstündə natural ölçülü meteoroloji peykin modeli asılmışdı, damda parabolik antena, dəhlizdə Qaqarinin, Titovun, Tereşkovanın portretləri dururdu. Düşünürəm ki, məndə elmə maraq o vaxtdandır. Tarix dərsini bizə sinf rəhbərimiz Marina Dmitriyevna tədris edirdi. Son günlərə qədər mən tərəddüd edirdim: hansı fakültəni seçim, nəyi seçim - göy cisimləri mexanikasını, yoxsa tarixi bilik nəzəriyyəsini. Amma tarixi - bizim dünyamızın xüsusi, insan ölçüsü haqqında elmi seçdim. Doğrusu, qarşımda universitet seçimi kimi bir məsələ durmurdu: hədəfim yalnız Rusiyanın ən qədim, tarixlə yaşayan Sankt-Peterburq Universiteti idi. Amma hər bir işdə özünüfədakarlıq çox əhəmiyyətlidir, ancaq məktəbdə olan özünüfədakarlığı başqa heç bir yerdə tapmaq mümkün deyil. Məktəbdə həmişə canlı emosiyalar, hərəkət var. 2009-cu ildə Rusiya Elmlər Akademiyasının aspiranturasını bitirdikdən sonra 116 nömrəli gimnaziyaya gəldim, o vaxtdan bu günə kimi bir gün belə oranı tərk etmirəm!

### Hər zaman bizimlə olacaq dostluq

*- "İlin müəllimi-2017" Ümumrusiya müsabiqəsi necə keçdi?. Müsabiqə haqqında təəssüratınız necədir...*

- Üç mərhələdən ibarət olan müsabiqənin ilk turu Soçidə keçdi. Rəqabət çox yüksək idi. Demək olar ki, ölkənin bütün regionları bu turda iştirak edirdi. Ümumrusiya müsabiqəsinin final mərhələsi 2 - əyani və qiyabi mərhələlərdən ibarət idi. Qiyabi mərhələdə 3 sınaq üzrə - metodik seminar (istifadə olunan pedaqoji texnologiyalar, metodlar, priyomlar, tapıntılarla bağlı təqdimat və onlara dair izahedici məktub), esse və müəllimin şəxsi saytına dair materiallar təqdim etmək tələb olunurdu. Sonda Moskvada ölkənin təhsil nazirinin iştirakı ilə final mərhələsinə çıxan 5 namizəd arasında "təhsil siyasətçilərinin açıq dərsi" keçirildi. Tədbirin mövzusu "Vahid təhsil məkanı" idi. Burada dərsliklərdən, onların keyfiyyətindən, vahid dövlət imtahanlarından bəhs olunurdu. Oktyabrın 5-də isə builki müsabiqənin qalibi Kremldə elan olundu.

Əminəm ki, "Uçitelskaya qazeta"nın xeyir-duası ilə start götürən milli müsabiqə Rusiya müəllimlərinin həyatında ən əhəmiyyətli hadisədir. Müsabiqədə iştirak böyük məsuliyyətdir, çünki yarışç təkcə özünü yox, eyni zamanda öz regionunun ən yaxşı pedaqoji təcrübəsini təqdim edir. Müsabiqə mürəkkəb işdir, o böyük hazırlıq və konsentrasiya tələb edir, onu yaşamaq lazımdır. Amma müsabiqədə əsas məqam, əminəm ki, son dərəcə parlaq və yaradıcı həmkarlarla, bizim böyük ölkənin bütün gözəl müəllimləri ilə tanış olmaq imkanıdır! Əsas təəssürat, əlbəttə ki, canlı insani ünsiyyət, müsabiqə zamanı yaranan və hər zaman bizimlə olacaq dostluqdur.

### "Sayəsində müəllim olduğum insan"

*- Sizin pedaqoji stajınız 8 ildir. Müsabiqədə iştirak etməyə necə qərar verdiniz? İdeyanız nədən ibarət idi? Müsabiqə essenizdə nələri yazmışdınız?*

- Mənim müəllim sarıdan bəxtim gətirib. İlk müəllimim Sergey Bukiniç məni məktəbə aparıb, onun yolu ilə gedərək müsabiqəyə qatılmışam. S.Bukiniç 2006-cı ildə müsabiqə qaliblərinin ilk "5"-liyinə daxil olaraq ən yaxşı müəllim adına layiq görülüb. Müsabiqə essesində mən, əlbəttə, onun haqqında yazdım. Çünki essemizin mövzusu "Sayəsində müəllim olduğum insan" idi. Amma bu essedə mən həmçinin öz əzizlərim haqqında da bəhs etmişdim: mən artıq öz ailəmizdə müəllimlərin dördüncü nəsliyəm. Mən həmçinin görkəmli pedaqoq və əsl təhsil meneceri Tatyana Tesle barədə danışırdım. T.Tesle 2009-cu ildə məni gimnaziyaya işə qəbul etdi və mənimlə birlikdə müsabiqə sınağının keçirildiyi Soçiyə getdi. Belə insanlarla ünsiyyət, əminəm ki, məni müəllim etdi. Müsabiqədə mən məhz bu ideyanı - insanın daha çox ehtiyacı olduğu dialoqu, canlı ünsiyyəti - hansı ki, onsuz heç nəyi öyrənmək mümkün deyil, müdafiə etdim.

*- Siz öz qələbənizə arxayın idiniz?*

- Mən öz həmkarlarımın, xüsusən də şagirdlərimin daimi dəstəyini hiss edirdim. Bu mənə əlavə güc verirdi və müsabiqənin sınaqlarını keçməyə kömək edirdi.

*- Sizcə, müasir müəllim hansı keyfiyyətlərə malik olmalıdır?*

- Mən düşünürəm ki, müasir müəllim bir növ "güzgü bacarığına" malikdir: o elə danışa bilir ki, şagird ona qulaq assın və o, elə qulaq asa bilir ki, şagird onunla azad danışsın. Bundan başqa, müasir dünya rəqəmsal mədəniyyət dünyasıdır. Bu dünyada sadəcə sərbəst istiqamətlənmək lazımdır.

> **Mən düşünürəm ki, müasir müəllim bir növ "güzgü bacarığına" malikdir: o elə danışa bilir ki, şagird ona qulaq assın və o, elə qulaq asa bilir ki, şagird onunla azad danışsın.**

### Ev tapşırıqları verməməyə çalışıram

*- Qiymətlərə münasibətiniz. Bəziləri hesab edirlər ki, onu ləğv etmək lazımdır. Siz bu fikirlə razısınız?*

- Mən, ümumiyyətlə, qiymət yazmağı xoşlamıram. Fikrimcə, bu gün onlar yalnız valideynlərə lazımdır: bu, həqiqətən də öz uşağının təlim nailiyyətlərinə operativ nəzarət etmənin rahat üsuludur. Amma müəllim və şagirdin özü üçün isə bu çoxdandır ki, artıq formallıqdır. Məktəbə qiymətə görə getmirlər. Şagirdin uğurlarını sözlə qiymətləndirmək daha vacibdir. Eyni səbəbə görə də mən ev tapşırıqlarını sevmirəm və onları şagirdlərimə verməməyə çalışıram: vacib olan hər şey sinifdə müəllim və şagird arasındakı canlı dialoqda baş verir.

*- Müəllimlikdə nəyi əsas hesab edirsiniz?*

- Mən əminəm ki, bizim hər birimizin daxilində çox böyük potensial var - Plusinnobisest, qədimdə, belə deyirdilər. Daxili resursları oyatmaq, onları reallaşdırmağa kömək etmək - bax, budur bizim işdə əsas olan.



### Şagirdlərdə iki bacarığa həsəd aparıram

*- Müasir uşaqlar haqqında danışaq. Çətindir onlarla işləmək? Şagirdlərinizlə münasibəti necə qurursunuz? Necə etməli ki, dərs uşaqlar üçün darıxdırıcı olmasın?*

- Nə vaxt ki, sənə maraqlı deyil, heç nəyi öyrənmək olmur. Maraqlı odur ki, emosional reaksiya doğurur. Maraqlıdır sərbəst surətdə kəşflər etmək. Şagirdlərlə qarşılıqlı münasibətlərin tərzinə gəlincə, mən əminəm ki, onlar qarşılıqlı etimada əsaslanmalıdır, həm də arada həmişə distansiya olmalıdır. Müəllimin effektiv işinin təminatı həm də bundadır. Müasir uşaqlarla işləmək çox maraqlıdır. Onlarda iki bacarıq var ki, mən ürəkdən həsəd aparıram. Birincisi, onların texnika və texnologiyalardan intuitiv olaraq baş çıxarmaq qabiliyyətləri. İkincisi, informasiyanın bolluğuna və onların mənbələrinin müxtəlifliyinə sakit münasibəti.

*- Necə hesab edirsiniz, müasir məktəb və uşaqlar çox dəyişib? Şagirdləri öyrənməyə necə motivasiya etməli?*

- Əgər sovet məktəbi ilə müqayisə etsək, onda mən şagirdlərdə və onların təlimi məsələlərində daha bir əhəmiyyətli dəyişikliyi qeyd edərdim. Əvvəllər məktəb qarşısında iş axtarmaq və karyera qurmaq hazırlığı kimi bir vəzifə yox idi. Bu gün isə bizə öz bacarıqlarımızı və səriştələrimizi idarə etməyi, peşələr dünyasında öz strategiyamızı qurmağı öyrənmək lazımdır. Və, əlbəttə, bu günün əhəmiyyətli çağırışı şagirdlərə informasiyalarla tənqidi işləməyi öyrətməkdir.

*- Sizin pedaqoji uğurunuzun sirri nədədir? Dərslərinizi necə qurursunuz?*

- Uğurun sirri pedaqoji işin formalarının müxtəlifliyində, dərsdə fəaliyyətin dəyişməsində, mədəni mühitin imkanlarından istifadədir. Peterburq məktəbi bunlarla məşhurdur.

### Özünü tədqiqatçı müəllim hesab edir

**İlyanı novator müəllim hesab etmək olar. O özünü müəllim yox, tədqiqatçı müəllim hesab edir. Şagirdlərinin işlərini özünün internet saytı vasitəsilə pedaqoji ictimaiyyətə, təhsillə maraqlananlara çatdırır.**

*- Məktəbin inkişafı innovasiyalar vasitəsi ilə həyata keçirilə bilər. Siz tədris prosesində təlimin hansı aktiv metodlarından istifadə edirsiniz? Tədris prosesində bizə daha çox nə lazımdır - informasiya və ya bilik?*

- Mən əminəm ki, hər şeydən əvvəl bizə fənn bacarıqlarını və vərdişlərini inkişaf etdirmək lazımdır. Bu, əsasdır. Bizim ətrafımızda informasiyalar kifayət qədərdir və müəllim bu gün yalnız biliklərin daşıyıcısı kimi qala bilməz, o, dərsdə elə bir şərait yarada bilməlidir ki, tədris prosesində anlama yaranacaq, bu biliklər məna kəsb edəcək. Bunun üçün isə şagirdlərlə danışmaq vacibdir. Bizim hər birimizdə dialoqa mane olan baryerlər mövcuddur. Buna görə də mən çoxsaylı işin müxtəlif formalarını sınaqdan keçirməyi əhəmiyyətli hesab edirəm: dram studiyası, ədəbi klub, sosial təcrübələr. Uşaqların bir qismi özlərini rolda yoxlayarkən söhbətə başlaya bilərlər və səhnəyə çıxacaqlar, başqaları sevimli kitabı və ya filmi müzakirə etmək imkanını qazanacaqlar. Onda fənnin tədris sahəsinə çıxmaq olar, məsələn, mənim tarix dərslərimdə olduğu kimi. Məhz bundan ötrü mən alman dilində teatr, Con Tolkinin yaradıcılıq həvəskarları klubunu təşkil, BMT-nin modelləşdirilməsi və başqa işlərdə iştirak edirəm.

Biz rəqəmsal aləmə daxil olmuşuq. Texniki cəhətdən məktəb çox dəyişib. Bu gün sinifdə dərsə başlayarkən mən orada bir anlıq olsa da proyektor qurğularını, interaktiv lövhələrin, internetin olmayacağını düşünə bilmirəm.

**Bununla belə, İlya Demakov əmindir ki, müasir texnika özlüyündə uşaqlarda biliklərə heç də maraq formalaşdırmır. "Yaxşı məktəbə çoxlu yeni texnika yerləşdirmək olar, amma uşaqların təhsilinin keyfiyyəti heç vaxt dəyişməyəcək",-deyə İlya bildirir. Onun sözlərinə görə, söhbət bizə daha operativ olmağa kömək edən alətlərdən, informasiyaların uşaqlara onların adət etdikləri formatda verilməsindən gedir.**

### Yaxşı müəllim şagirdlərin yanında olmalıdır

*- Sizcə, müəllimin statusunu necə yüksəltmək olar?*

- Müsabiqələr bunun üçün ən vacib formalardan biridir. O, özünün iş təcrübəsinin açıq nümayişi üçün pozitiv təcrübə verir, diqqəti ən yaxşı təcrübələrə və yaradıcı müəllimlərə yönəldir. Bizi işdə görməli, bizim peşəkar imkanlarımızın bütün müxtəlifliklərini qiymətləndirməlidirlər.

*- Sizin indi bir fəxri vəzifəniz də var - bir il Rusiya təhsil və elm nazirinin ictimai məsləhətçisi oldunuz. Naziriniz qarşısında hansı kəskin sualları qaldırmaq istərdiniz?*

- Hər şeydən əvvəl, müəllim inkişafının milli strategiyası məsələsini. Bu, biz müəllimlərə öz karyera ambisiyalarını təmin etməyə, lakin şagirdlərin yanında qalmağa imkan verən bir sistemdir. İndi bunun üçün tək üsul inzibati işə keçiddir, ancaq bu yanlışlıqdır. Yaxşı müəllim şagirdlərin yanında olmalıdır.

*- Sizin gələcəklə bağlı planlarınız?*

- Müsabiqələr peşəkar və şəxsi həyatda əhəmiyyətli mərhələdir. İndi nəticə çıxartmaq, həmkarlarla və şagirdlərlə birlikdə yeni strategiya qurmaq üçün əsl vaxtdır.